# Dünya azərbaycanlılarının ürək sözləri

**31 dekabr – bu gün Azərbaycan xalqının tarixində ən yadda qalan, ən şərəfli günlərdən biri – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür! Bu, Azərbaycan xalqının birliyinin simvolik günüdür. Dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq baxımından mühüm rol oynayır. İndi həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.**

**Bu gün dünyanın müxtəlif guşələrinə səpələnmiş azərbaycanlılar xarici ölkələrdə yaşamaq, işləmək, özlərinin və ya övladlarının təhsil almalarını təmin etməklə yanaşı, doğma Vətənlərini də unutmur, Azərbaycan həqiqətlərinin təbliğində böyük fəallıq göstərirlər. Əlbəttə, bu missiyada fərqlənən diaspor nümayəndələrimiz də var. Onların da bu əziz gündə xalqımıza sözü var.**

**Rəfayıl QULİYEV,
Rusiya, Sankt-Peterburq
Xeyriyyəçi-iş adamı:**



– Bu gün xalqımız üçün ən önəmli günlərdən biridir. Həm milli birlik, milli diriliş günüdür, həm də köhnə ilin sonu, yeni ilin gəlişidir. Ötən iki il xalqımız üçün çox əlamətdar oldu. Vətənimiz bütövləşdi, xalqımız birləşdi, torpaqlarımız qarı düşməndən azad edildi. Ali Baş Komandan İlham Əliyevin iradəsi, qətiyyəti bütün sferalarda özünü göstərdi. Azərbaycan həm qalib ölkəyə çevrildi, həm də Qarabağda gördüyümüz abadlıq-quruculuq işləri ilə dünyada mütərəqqi imicə sahib oldu. Dünya gördü ki, Azərbaycan xalqı qurucu xalqdır, vandal və talançı deyil. Bu iki fərqli düşüncə sisteminin müqayisəsində məqsəd Azərbaycan adının önə çıxması idi ki, biz də bunu bacardıq. Hazırda Şuşada "ekoloji terrora son" aksiyası keçirilir. Günlərdir soydaşlarımız orada soyuq havalarda mücadilə edir, separatçılara dərs verirlər. Hazırda ən böyük bayram təbriki həmçinin onlara düşür. Vətən müharibəsində qalib olduğumuz kimi, mülki mübarizəmizdə də qalib olacağıq. Mən hər birinizi təbrik edirəm, birlik, qardaşlıq tellərinə möhkəm sarılmağımızı arzu edirəm!

**Vüqar ABBASOV,
Niderlandda "Connekt" diaspor təşkilatının sədri, jurnalist:**



– Mən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı xalqımıza yüksək rifah və ərazi bütövlüyü tam təmin olunan Vətən arzulayıram. Hamımız dövlətçiliyimizə dəstək olmalıyıq. Arzu edirəm, qarşıdan gələn 2023-cü ildə xalqımız həmrəylik baxımından bütün işlərdə yalnız irəli getsin və daha böyük uğurlara sevinsin. Vətən müharibəsində qələbəmiz bizim necə monolit olduğumuzu sübut etdi. Bu birliyi hər zaman davam etdirməliyik.

Ən böyük hədəfimiz, əsas məqsədimiz, heç şübhəsiz, burada Azərbaycanımızı olduğu kimi tanıtmaq, haqq səsimizi çatdırmaq, həqiqətlərimizi dilə gətirərək və yaxud da qələmə alaraq təbliğ etməkdir. Çünki bu prosesdə düşmən ölkənin diasporunun fəallığı Qərbi Avropada xüsusilə hiss olunur. İnformasiya müharibəsində, erməni media manipulyasiyasının qarşısını almaqda bizim mətbuatla əlaqələrimiz ölkəmiz üçün böyük əhəmiyyət daşıyır. Ulu Tanrıdan xalqımıza düşmənə qarşı hər zaman bütöv, tam olmağı arzulayıram!

**Mirvari FƏTƏLİYEVA,
"Paris Azərbaycan Evi"nin rəhbəri:**



– Bu gün bizim əsas şüarımız bərabər olmaqdır. Vətənimizin uğurlarını gözü götürməyən qüvvələrə qarşı hər zaman şax duruşumuzu sərgiləməliyik. İndiki zamanda bu, çox vacibdir. Biz informasiya savaşında erməni manipulyasiyalarının gücləndiyi dövrdə mütləq birgə iş ortaya qoymağa çalışmalıyıq ki, nəticəsi təsirli olsun. Həm yaxınlaşmalıyıq, həm də yaşadığımız ölkələrdə dostlarımızın sayını çoxaltmalıyıq. Daha sonra, maliyyə çatışmazlıqlarının da aradan qaldırılması mütləqdir. İş adamlarımız bu prosesə cəlb edilməlidirlər. Onların milli birliyə töhfələri çox ola bilər. Çünki, erməni iş adamları bu sahədə irəlidə gedirlər. Dünya azərbaycanlılarının dünyanın hər yerində həmrəylik nümunəsi göstərməsi zamanın tələbidir. Qoy, həmişə işığımız yansın! Ocağımız heç zaman sönməsin!

**Şahin VƏLİSOY,
İngiltərə–London
İş adamı, ictimai fəal:**



– Bu bayramı qeyd edərkən 50 milyondan artıq bir xalqın nümayəndəsi olduğum üçün fəxr edirəm. İliyinə qədər vətənpərvər insanlar bu bayramın əsl mahiyyətini daha dərindən dərk edirlər. Bu, onu göstərir ki, xalqımız 300 milyonluq Türk Dünyası içərisində böyük bir qolu təşkil edir. Bu günü biz tamamilə fərqli hisslərlə qeyd edirik. Çünki bu bayramın əsli ayrılıqdan başlayır, hədəfində isə ayrılığın bitməyi dayanır. Xaricdə yaşayan həmvətənlərimiz üçün həmrəylik günü bir növ təsəlli və qürur mənbəyidir. Qürbət ellərdə ömür sürən, fəaliyyət göstərənlər üçün bayramdan artıq bayramdır bu gün. Son iki ildə bu bayramı özəl edən əsas səbəb isə torpaqlarımızın azad edilməsidir. Biz döyüş meydanında düşməni darmadağın etdik, bütün beynəlxalq sivil qanunlara riayət etdik, müharibə cinayətləri törətmədən babalarımıza xas olan mərdlik, kişilik xüsusiyyətlərimizə sayğı ilə savaş apardıq və qələbə qazandıq. İndi Şuşamıza, Laçınımıza gedib gəlirik. Tanrı bizə bir də doğma torpaqlarımızdan aralı düşməyi nəsib etməsin.

Qoy, xalqımız hər zaman hürr yaşasın, ocağı gur yansın, hər bir günü bu bayramlar kimi möhtəşəm keçsin !

**Anar TURAN,"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 31 dekabr.- S.28.